# ANTROPOGEN AMİLLƏRİN MEŞƏ ALTINDAN ÇIXMIŞ TORPAQLARA TƏSİRİ

**Gülçöhrə Hüseynova, Zaman Məmmədov**

*AR ETN Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Bakı*
*huseynova-gulcohre@mail.ru, zamanmammadov81@gmail.com*

Müasir dövrümüzdə qlobal iqlim dəyişiklikləri, atmosfer və su hövzələrinin çirklənməsi, aridləşmə və səhralaşma, biomüxtəlifliyin azalması və bir sıra ekoloji problemlər yaranmış və günün aktuallığını əhatə edir. Respublikamız müstəqilliyini qazandıqdan sonra ətraf mühitin mühafizəsi sahəsi ilə bağlı bir çox beynəlxalq konvensiyalara qoşulmuş, bununla bağlı olaraq üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində vacib addımlar atmışdır. Son illər bu sahədə beynəlxalq təşkilatlarla əlaqələr genişlənmiş, birgə layihələr hazırlanaraq həyata keçirilmiş, ekoloji tarazlığın təmin edilməsinə, ətraf mühitin çirkləndirilməsinin qarşısının alınmasına yönəlmiş bir sıra dövlət tədbirlərinin görülməsinə başlanılmışdır.

Ölkəmizin torpaq örtüyünün aqroekoloji xüsusiyyətləri nəzərə alınmaqla həm dağ və dağətəyi, həm də düzənlik sahələrdə çoxlu sayda tədqiqatlar aparılmışdır. İnsanın təsərrüfat fəaliyyəti nəticəsində meşələrin qırılması və meşə tarlalarının otlaq yerlərinə çevrilməsi və mal-qaranın otarılması dağ zonasında torpaqəmələgəlmə prosesinin istiqamətini dəyişərək, bir sıra mənfi proseslərin, həmçinin eroziyanın

inkişafına, sellərin təkrarlanmasının artmasına səbəb olmuşdur. Böyük Qafqazın Cənub yamacının Oğuz rayonunda şiddətli leysanlar müşahidə edilir ki, bu da torpaqların eroziyasına səbəb olur. Dağ kəndlərinin ətrafında meşələrin çox miqdarda qırılması nəticəsində güclü antropogen təsir olmuşdur və eroziya prosesləri güclənmişdir.

Böyük Qafqazın Cənub yamacının Oğuz rayonunun meşə altından çıxmış torpaqlarında uzun zaman ərzində tədqiqatlar aparılmışdır. Bu tədqiqatlar nəticəsində aydın olmuşdur ki, bütün münbitlik parametrlərində baş verən dəyişikliklər azalmaya doğru getmişdir. Tədqiqat zonasında həm ərazinin meyilliliyi, torpaqların sukeçiriciliyinin zəif olması nəticəsində eroziya prosesləri artmış və s. bu kimi amillər təsir göstərmişdir.

**Cədvəl 1.**

Oğuz rayonu meşə ilə örtülü olmayan torpaqlar

| Rayon | Meşə bitkiləri ilə örtülü olmayan torpaqlar | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Çətiri birləşməmiş meşə əkinləri | Meşə tingliyi | Təbii seyrəkliklər | Meşə bərpa fondu | | | Qırma yerləri |
| | | | | Yanğın yerləri | Qurumuş ağaclıqlar | Talalar, boş yerlər | |
| **Oğuz** | 111 | 2 | 259 | 0 | o | 358 | 617 |

Cədvəldə qeyd olunanlara nəzər yetirsək Oğuz rayonunun meşə ilə örtülü olmayan sahələri çətiri birləşməmiş meşə əkinləri, meşə tingliklərі, təbii seyrəkliklər, qırma yerləri və talalardan ibarətdir. Bu sahələr rayonun müxtəlif kəndlərində yerləşir. Bu torpaqlardan qırma yerləri olan ərazilər daha geniş yayılıb. Rayon ərazisində qurumuş ağaclıqlar yoxdur.

Antropogen amillərin təsiri nəticəsində meşələrin qırılması, yamaclarda torpaqların düzgün becərilməməsi və eroziyaya qarşı mübarizə tədbirlərinin aparılmaması və mal-qaranın otlaqlarda intensiv otarılması da Oğuz rayonu ərazisində torpaqların yararsız vəziyyətə düşməsinə və bozqırlaşma prosesinə şərait yaratmışdır. Son zamanlarda iqlimin həddindən artıq quru və kontinental olması meşə sərhədlərinin yuxarı qalxmasına səbəb olmuşdur. Meşə sərhədlərinin dəyişməsinə antropogen və təbii proseslərin təsiri böyükdür. Meşə altından çıxmış torpaqlara antropogen təsirlər zaman keçdikcə daha da artır. Meşə altından çıxmış torpaqlar əsasən kənd təsərrüfatına yararlı torpaqlar hesab edilir ki, bu torpaqlarda müxtəlif bitkilər yetişdirilir. Bu təsirlərə əkin yerlərinin davamlı istifadə edilməsi, torpaqlara verilən kimyəvi və mineral gübrələr, torpaqların yanlış və həddindən artıq suvarılması, ağacların qırılmasını aid etmək olar. Antropogen amillər əsasən insanın təsərrüfat fəaliyyəti nəticəsində yaranmışdır. Əkin yerlərinin hər il istifadəsi torpaqların deqredasiyaya uğramasına səbəb olur ki, bu zaman torpaq öz mexaniki tərkibini, strukturunu itirir. Torpaqların belə dəyişikliklərə məruz qalması onun digər kəmiyyətlərinin də dəyişməsinə səbəb olur. Meşə altından çıxmış torpaqların bozqırlaşması bu torpaqların yararsız vəziyyətə düşməsinə və zaman keçdikcə kənd təsərrüfatı sahələrinin azalmasına səbəb olur. Torpaqların həddindən artıq suvarılması da onları yararsız vəziyyətə salır ki, bu da şoranlaşmaya səbəb olur.

**Cədvəl 2.**

Oğuz rayonu qeyri-meşə torpaqları

| Rayon | Qeyri-meşə torpaqları | | | | | |
|---|---|---|---|---|---|---|
| | Əkin yerləri | Biçənəklər | Örüşlər | Su altındakı sahələr | Bağlar, üzümlüklər | Yollar |
| **Oğuz** | 23 | 29 | 739 | 27 | 1073 | 34 |

Oğuz rayonunun qeyri-meşə torpaqlarına əkin yerləri, biçənəklər, örüşlər, bağlar və üzümlükləri aid etmək məqsədəuyğundur. Qeyri meşə torpaqlarından bağlar və üzümlüklər daha geniş sahələri əhatə edir. Bağlar və üzümlüklər 1073 ha, biçənəklər 29 ha, əkin yerləri 23 ha, örüşlər 739 ha sahəni əhatə edir. Tədqiqat apardığımız Oğuz rayonunun qeyri-meşə torpaqlarından 58 %-ni bağlar, üzümlüklər; 40 %-ni örüşlər və qalan hissələrini də əkin yerləri və biçənəklər təşkil edir.




**Şəkil 1.** Oğuz rayonunun qeyri-meşə torpaqları

Həmçinin bir zamanlar meşə olmuş ərazilərdə ağacların intensiv qırılması bu sahələrin seyrək kolluqlarla əvəz olunmasına imkan verir. Oğuz rayonunda belə ərazilərdə mal-qaranın, qoyunların otarılması torpaq səthinin pozulmasına, bitki örtüyünün azalmasına səbəb olub. Ərazilərdə heyvanların otarılması zamanı torpaq səthi parçalanmaya məruz qalır ki, bölgəyə yağıntı düşən zaman asasən də, leysan yağışları zamanı torpağın üst təbəqəsi yuyulur. Belə ərazilərin torpaqlarının susaxlama qabiliyyəti də getdikcə azalır. Torpaqların üst qatının yuyulması eroziya proseslərinin də artmasına səbəb olur.

İnsanlar təsərrüfat fəaliyyəti nəticəsində rayon ərazisində meşələrin qırılması, meşə landşaftlarının qorunub saxlanılmaması bu sahələrin otlaq yerlərinə çevrilməsinə səbəb olmuşdur. Otlaq yerlərində mal-qaranın intensiv otarılması zonada torpaqəmələgəlmə prosesinin hərtərəfli yön dəyişməsinə, müxtəlif ekoloji problemlərin yaranmasına və ekosistemin dəyişikliyə uğramasına səbəb olur. Meşə altından çıxmış torpaqlara antropogen amillərin təsiri eroziyaya və digər ekoloji hadisələrə səbəb olur. Meşə altından çıxmış torpaqlara antropogen təsirlər torpaqların məhv olmasına, torpaq fauna və florasının dəyişməsinə, torpağın mexaniki tərkibinin və strukturunun pozulmasına gətirib çıxarır. Meşə altından çıxmış torpaqlarda baş verən dəyişikliklər torpaqda olan mikroorqanizmlərin və digər fəaliyyət göstərən canlıların azalmasına şərait yaradır ki, bu da bozqırlaşmış torpaqlarda münbitliyin daha da azalmasına səbəb olur.